# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 57** **Bakı şəhəri, 26 fevral 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Səyyar vergi yoxlaması zamanı vergi orqanları tərəfindən inventarizasiyanın aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2003-cü il 12 iyun tarixli 82 nömrəli və "Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi" çərçivəsində Azərbaycan Respublikasının ərazisində quraşdırılmış Fasiləsiz Fəaliyyət Göstərən İstinad Stansiyaları Şəbəkəsində olan məlumatlardan istifadənin qayda və şərtləri"nin təsdiq edilməsi haqqında" 2017-ci il 5 iyun tarixli 248 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Səyyar vergi yoxlaması zamanı vergi orqanları tərəfindən inventarizasiyanın aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 12 iyun tarixli 82 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 350; 2015, № 12, maddə 1590) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Səyyar vergi yoxlaması zamanı vergi orqanları tərəfindən inventarizasiyanın aparılması Qaydaları" üzrə:

1.2.1. 1.3-cü bəndin birinci abzasında "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin;

1.2.2. 2.1-ci bəndin birinci abzasında və ikinci abzasının ikinci cümləsində ismin müvafiq hallarında "Vergilər Nazirliyi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

**2.** "Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi" çərçivəsində Azərbaycan Respublikasının ərazisində quraşdırılmış Fasiləsiz Fəaliyyət Göstərən İstinad Stansiyaları Şəbəkəsində olan məlumatlardan istifadənin qayda və şərtləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 5 iyun tarixli 248 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1224) aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci abzas 1-ci hissə hesab edilsin və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezi-dentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.";

2.2. həmin Qərarla təsdiq edilmiş "Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi" çərçivəsində Azərbaycan Respublikasının ərazisində quraşdırılmış Fasiləsiz Fəaliyyət Göstərən İstinad Stansiyaları Şəbəkəsində olan məlumatlardan istifadənin qayda və şərtləri"nin 1.4-cü bəndində "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2022.- 2 mart.- S.5.